## Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun məhkəmə və hüquq mühafizə orqanları işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə onların həyatının və sağlamlığının dövlət icbari şəxsi sığortası qaydalarını və şərtlərini müəyyən edir.

**Maddə 1. Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında qanunvericilik**

Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası bu Qanunla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Sığorta fəaliyyəti haqqında,, "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında" Qanunları və digər qanunları ilə, müvafiq icra hakimiyyəti orqanlarının bu Qanuna uyğun olaraq qəbul etdikləri normativ aktlarla tənzimlənir.

**Maddə 2. Sığorta olunanlar**

Bu Qanunun məqsədləri üçün məhkəmə və hüquq mühafizə orqanları işçilərinə (sığorta olunanlara) bütün məhkəmə hakimləri, andlı iclasçılar, prokurorlar, müstəntiqlər, ədliyyə orqanlarında qulluq keçən şəxslər, təhqiqat aparan şəxslər, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən şəxslər, ictimai qaydanın mühafizəsinin və milli təhlükəsizliyi təmin edən, gömrük işini həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarının əməkdaşları aid edilirlər.

**Maddə 3. Sığortaçı**

Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin sığortaçısı dövlət sığorta orqanıdır.

**Maddə 4. Sığorta məbləğinin və sığorta haqqının minimum miqdarı**

Bu Qanuna uyğun olaraq hər bir məhkəmə və hüquq mühafizə orqanları işçisi onların 5 illik əmək haqqı məbləğində sığorta edilir.

Sığorta haqqı~~, sığortaçının komisyon mükafatları da nəzərə alınmaqla,~~ sığorta məbləğinin bir faizi miqdarında müəyyən edilir.

Müvafiq icra hakimiyyəti orqanlarının qərarı ilə sığorta haqqının miqdarı artırıla bilər.

**Maddə 5. Sığorta hadisələri və ödənişləri**

Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin xidmət vəzifələrinin icrası ilə bağlı həlak olması (vəfat etməsi), xəsarət (yaralanma, travma, kontuziya) alması sığorta hadisələri hesab edilir.

Sığorta hadisələri baş verdikdə sığorta məbləğindən faizlə aşağıdakı sığorta ödənişləri verilir;

a) sığorta olunan məhkəmə və ya hüquq mühafizə orqanlarında xidmətdə olduğu zaman həlak olduqda (vəfat etdikdə) - 100 faiz;

b) sığorta olunan xidmətdə olduğu zaman aldığı xəsarət (yaralanma, travma, kontuziya) almağa görə xidmətdən çıxdıqdan sonra üç il ərzində öldükdə - 100 faiz;

c) sığorta olunana əlillik təyin olunduqda;

I qrup - 80 faiz;

II qrup - 60 faiz;

III qrup - 40 faiz

ç) sığorta olunan:

ağır xəsarət (yaralanma, travma, kontuziya) aldıqda - 20 faiz;

yüngül xəsarət (yaralanma, travma, kontuziya) aldıqda - 10 faiz.

**Maddə 6. Sığortanın aparılması qaydası**

Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası müvafiq icra hakimiyyəti orqanları, müvafiq məhkəmələr və Azərbaycan Respublikası Prokurorluğu (sığortalılar) üçün bu məqsədlə hər il dövlət büdcəsində nəzərdə tutulmuş vəsait hesabına aparılır.

Sığorta etdirənlər məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortasını təmin etmək üçün işçilərin siyahısını sığortaçıya təqdim etməklə onlara bu məqsədlə dövlət büdcəsindən ayrılan vəsaitdən tələb olunan sığorta haqlarının məbləğini hər il rüblər üzrə sığortaçıya ödəyirlər.

Sığortaçı hər rüb sığortalılara əvvəlki rübün icrasına dair hesabat təqdim edir.

Sığortaçı, yaxud onun ərazi bölmələri bu Qanunda nəzərdə tutulmuş şərtlərlə və məbləğdə sığorta olunana və ya onun vərəsələrinə sığorta ödənişini müvafiq sənədləri aldığı gündən 7 gün ərzində verir.

Sığorta ödənişi verilmiş sığorta hadisəsi ilə bağlı yeni sığorta hadisəsi baş verdikdə əvvəl ödənilmiş məbləğ nəzərə alınır.

**Maddə 7. Sığorta ödənişlərinin alınması üçün tələb olunan sənədlər**

Sığorta ödənişlərinin alınması üçün sığorta olunan, yaxud onun vərəsələri dövlət sığorta orqanlarına və ya yaşadığı ərazi üzrə həmin orqanın bölmələrinə müəyyən olunmuş formada ərizə, şəxsiyyətini təsdiq edən sənəd, əmək kitabçasının surəti və ya iş yerindən arayış, sığorta hadisəsinin xidmət vəzifələrinin icrası ilə bilavasitə bağlı olması barədə müvafiq orqanının arayışı ilə birlikdə aşağıdakı sənədləri təqdim edir:

a) həlak olma (ölüm) halında :

sığorta olunanın ölümü haqqında müvafiq icra hakimiyyəti orqanının notariat qaydasında təsdiq olunmuş şəhadətnaməsinin surəti;

vərəsəlik hüququnu təsdiq edən sənəd;

sığorta olunan xəsarət (yaralanma, travma, kontuziya) almağa görə xidmətdən çıxdıqdan sonra üç il ərzində öldükdə yuxarıda göstərilən sənədlərdən əlavə həkim komissiyasının həmin faktı təsdiq edən rəyi;

b) əlillik haqqında:

əlilliyin təyin edilməsi haqqında (əlilliyin qrupu, səbəbi və təyin edilməsi tarixini göstərməklə) tibbi-sosial ekspert komissiyasının arayışının notariat qaydasında təsdiq edilmiş surəti;

c) ağır, yaxud yüngül xəsarət (yaralanma, travma, kontuziya) alması halında:

xəsarətin (yaralanma, travma, kontuziya) dərəcəsi və səbəbi haqqında həkim arayışı.

sığorta olunanın və ya onun vərəsələrinin sığorta ödənişinin alınması üçün sığorta hadisəsi günündən 3 il keçənədək dövlət sığorta orqanına və ya yaşadığı ərazi üzrə həmin orqanın bölmələrinə müraciət etmək hüququ vardır.

**Maddə 8. Sığorta ödənişinin verilməsindən imtina**

Sığorta olunana və ya onun vərəsələrinə sığorta məbləğinin verilməsindən aşağıdakı hallarda imtina edilir: sığorta hadisəsinin sığorta olunanın xidmət vəzifələrinin icrası ilə bilavasitə bağlı olmamasını müəyyən edən məhkəmə hökmünün və ya qərarının qəbul edilməsi, yaxud sığorta olunan alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə hərəkət etdikdə.

**Maddə 9. Nəzarət və məsuliyyət**

Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortasının vaxtında və düzgün aparılmasına sığorta orqanı nəzarət edir.

Bu Qanunun müddəalarının pozulmasına görə sığortalıların, dövlət sığorta orqanlarının və onların bölmələrinin rəhbərləri və digər vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 10.( Ç ı x a r ı l ı b )**

**Maddə 11. Mübahisələrə baxılması qaydası**

Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası ilə əlaqədar mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada, o cümlədən məhkəmə qaydasında həll edilir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 5 oktyabr 1999-cu il
№ 705-IQ

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


**1.** 23 noyabr 2001-ci il tarixli 219-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 736**)
**2.** 24 iyun 2005-ci il tarixli 948-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 692**)
**3.** 10 oktyabr 2006-cı il tarixli 161-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 11, maddə 928**)
**4.** 17 aprel 2007-ci il tarixli 313-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 560**)
**5.** 6 avqust 2008-ci il tarixli **620-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti 8 avqust 2008-ci il, № 174, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 695)**
**6.** 2 oktyabr 2008-ci il tarixli 699-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 noyabr 2008-ci il, № 257)**